Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

# Yeni YOL

31 YANVAR
2022-Cİ İL
№ 002 (149)

İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ "იენი იოლი" საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

## "20 YANVAR" FACİƏSİNDƏ ŞƏHİD OLAN GÜRCÜSTAN AZƏRBAYCANLILARI




**1990-cı il 20 Yanvar faciəsində şəhid olmuş Gürcüstan azərbaycanlıları:**

**İsmayıl Həsən oğlu Mursaqulov (1939-1990)** – Marneuli, Qızılhacılı kəndi;

**Rəşid İslam oğlu İsmayılov (1949-1990)** – Qardabani, Ağtəhlə kəndi;

**İlqar Hümmət oğlu Əhmədov (1965-1990)** – Bolnisi, Faxralı kəndi;

**Ələsgər Yusif oğlu Qayıbov (1966-1990)** – Saqareco, Yormuğanlı kəndi;

**Vəfadar Osman oğlu Eminov (1966-1990)** – Marneuli, Kirəc-Muğanlı kəndi;

**Tenqiz Məmməd oğlu Turabov (1966-1990)** – Bolnisi, Kəpənəkçi kəndi;

## TÜRKİYƏ SƏFİRİ: TÜRKİYƏ AZƏRBAYCANLI QARDAŞLARININ MÜCADİLƏSİ VƏ ZƏFƏRİ İLƏ QÜRUR DUYUR



"1990-cı ildə yanvarın 19-dan 20-nə keçən gecə Bakıda baş verənlər Azərbaycan xalqının azadlıq və müstəqillik uğrunda ortaya qoyduğu qəhrəmanlıq savaşı idi. Qanlı yanvar hadisələri sovetlər birliyinin süquturunun müjdəçisi oldu". Bunu Türkiyənin Gürcüstandakı səfiri Fatma Ceren Yazqan jurnalistlərə açıqlamasında deyib.

Onun sözlərinə görə, 32 il öncə Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü naminə başlanan mücadilə 2020-ci ildə 44 günlük Vətən müharibəsində Zəfərlə yekunlaşdı.

"Türkiyə azərbaycanlı qardaşlarının mücadiləsi və Zəfəri ilə qürur duyur. Türk xalqının bütün şəhidlərinin xatirələrini minnətdarlıq və qürur hissi ilə anırıq. Onların qəhrəmanlıqları hər gün xatırlanmalıdır. Şəhidlərin əziz xatirələri önündə baş əyirik və ailələrinə səbr diləyirik", - səfir deyib.

## SALOME ZURABİŞVİLİ: SAAKAŞVİLİNİN ƏVFİ GÜRCÜSTANDAKI VƏZİYYƏTİ PİSLƏŞDİRƏCƏK



"Eks-prezident Mixeil Saakaşvilinin əfvi Gürcüstandakı vəziyyəti yalnız pisləşdirəcək". Bunu Gürcüstan Prezidenti Salome Zurabişvili jurnalistlərlə görüşdə deyib.

"Əminəm ki, Saakaşvilinin əfv edilməsi Gürcüstanda qütbləşmənin aradan qaldırılmasına deyil, dərinləşməsinə səbəb olacaq", - dövlət başçısı qeyd edib.

S.Zurabişvilinin sözlərinə görə, sabiq prezidentin Gürüstana dönməsi qütbləşməyə aparan addımlardan biri olub.

"Mən əlavə qütbləşməyə gətirib çıxaracaq heç nə etməyəcəyəm", - deyə Prezident vurğulayıb.

## GÜRCÜSTANDA KORONAVİRUSDAN ÖLƏNLƏRİN SAYI 14 980 NƏFƏRƏ ÇATIB



Yanvarın 31-nə olan son məlumata əsasən, Gürcüstanda koronavirusdan ölənlərin sayı 14 980 nəfərə çatıb. Bu haqda hökumətin xüsusi yaratdığı www.stopcov.ge saytında qeyd edilib.

Məlumatda ölkədə koronavirusa yoluxanların ümumi sayı 1 175 923 nəfər, sağalanların sayı isə 1 009 778 nəfər olaraq göstərilib.

Yanvarın 31-nə kimi ölkədə ümumi olaraq 2 712 889 nəfər COVID-19 əleyhinə peyvənd olunub.

Ölkə üzrə karantin rejimində 38 nəfər, stasionar nəzarətdə 5 433 nəfər, COVID mehmanxanalarda olan şəxslərin sayı 2 000 nəfə olaraq göstərilib.

Səh. 2 TUALET - Azər Musaoğlu yazır
Səh. 3 SÖZÜN DƏYƏRİ - Hacı Bəkiroğlu yazır
Səh. 4 XÜSUSİ APARICI MÜƏLLİM OLMAQ ÜÇÜN NƏLƏR TƏLƏB OLUNUR?
Səh. 4 MƏKTƏBLƏRDƏ 2 851 TƏCRÜBƏÇİ MÜƏLLİM VAR
Səh. 5 YANAN DA BİZ, YAMAN DA BİZ - Esmira Ələkbərli yazır
Səh. 5 YER ÜZÜNÜN ZİBİLİ VƏ SƏRVƏTİ - Vüqar Vəkiloğlu yazır
Səh. 6 TÜRKDİLLİ XALQLARIN ƏXLAQİ-ESTETİK ALƏMİ - Elizbar Cavelidze
Səh. 7 NİDERLAND – PƏRDƏ ARXASINDAKI GERÇƏKLƏR - Afiq Muxtaroğlu yazır



# TUALET

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Bu yaxınlarda internetdə avaralandığım zaman qarşıma "Sakinlər Qardabani meriyasının fəaliyyətindən razıdırmı?" başlıqlı bir video çıxdı. "Sakinlərin" suala cavabları məni də maraqlandırdığı üçün tez özümə bir yekə fincan çay süzüb, monitorun qarşısında yerimi rahatlayıb "play" işarəsinin üzərinə tıkladım. Düzü, videonun neçə dəqiqə davam etməsinə fikir verməmişdim, "sakinlər" sözünə arxalanıb videonun ən azı 9-10 dəqiqə davam etməsini gözləyirdim. 2 dəqiqə 46 saniyəlik videoda (sorğuda) cəmi 4 "sakin" (respondent) yerli medialardan birinin müxbirinin sualına cavab verirdi və baxmayaraq ki, hesabdan zəifəm, riyaziyyatdan məktəb vaxtından zəhləm gedib (amma indiki ağlım olsaydı təkcə riyaziyyatı oxuyardım), nə qədər hesab-kitab etsəm də, rəsmi olaraq 81876-dan 4-ü çıxıb alınan fərqi 2,46-ya bölsəm də heç cür "Qardabani sakinləri" ifadəsinə sığışdıra bilmədim. Amma söhbətimiz bu deyil, sözhbətimiz "sakinlərin" müxbirə verdiyi cavabla, yəni "meriyanın fəaliyyətindən razıdılarmı" sualına verilən cavabla bağlıdır.

Mətləbə keçməmişdən qabaq bir haşiyə çıxım ki, məsələnin nə qədər ciddi olub-olmadığına özünüz qərar verəsiniz.

Tualetin nə olduğunu, necə olduğunu, hansı funksiyanı yerinə yetirdiyini hamımız yaxşı bilirik, buna görə də xırdalıqlara varmadan tualet haqqında bir neçə fakt qeyd etməklə kifayətlənəcəm.

İnternetdə olan mənbələrə inansaq, fransız sözü tualet 1681-ci ildə işlədilməyə başlayıb və qadınların bəzənməsi üçün güzgülü və qutulu kiçik stol; zahiri görkəm, yaraşıq, bəzək-düzək; səliqə-sahman, geyim mənalarını ifadə edib ki, buna bədii ədəbiyyatda da çox rast gəlinir. Dilimizdə ayaqyolu da işlədilir, amma biz bu yazıda "sakinlərin" cavablarına uyğun olaraq tualet sözünü işlədəcəyik.

İlk tualetin nə vaxt və harada yarandığına gəldikdə isə, yenə də internetdə olan mənbələrə inansaq, oturacaqlı tualetin eradan 2600 il əvvəl Şumer çariçasına aid olduğu yazılır. 5000 il yaşı olan stulabənzər tualetin qalıqları isə Şotlandiyada tapılıb. Eramızdan əvvəl 2100-cü ilə aid tualetə Misirdə, Parisdə və Hindistan yarımadasında da rast gəlinmişdir, baxmayaraq ki, bu gün Hindistanda əhalinin 12 faizinin tualeti yoxdur.

İlk ictimai tualetlər isə Romada aşkarlanıb və eramızdan əvvəl 5-ci əsrə aid edilir. İnsanlar bu tualetlərə təkcə təbii ehtiyaclarını ödəmək üçün deyil, həm də oturmaq, söhbət eləmək, iş barəsində fikir mübadiləsi aparmaq üçün gedirlərmiş.

İlk tualetlərin oturacaqları daşdan imiş və bu daş oturacaqları qızdırmaq üçün xüsusi nökərlər var imiş ki, əvvəlcə özləri oturub tualeti isidirlərmiş, sonra ağalar oturub öz işlərini görürlərmiş. Bu tualetlərin xüsusi daş kanallarla çaya çıxışı olarmış və bu tualetlərdən təkcə varlılar istifadə edərmiş, qalan əhali isə hara gəldi...

İnsanlar təbii ehtiyaclarını ödəmək üçün həmçinin güvəclərdən (qorşoklardan) istifadə edirlərmiş. Yazılanlara inansaq, dolmuş güvəcləri hara gəldi boşaldırmışlar və buna görə də küçələrdən tutmuş evlərin, sarayların içinə qədər üfunət iyi hökm sürürmüş.

1837-ci ildə ingiltərəli çilingər Tomas Krepper kanalizasiyaya çıxışı olan müasir formalı unitazı və U-şəkilli kanalizasiya borusunu ixtira edib.

1909-cu ildə isə İspaniya şirkəti "Untas" oturacağı və su bakı olan tualetin istehsalına başlayıb. Unitaz sözü də məhz belə yaranıb.

Bir maraqlı faktı da qeyd edib mətləbə keçirəm. Deməli, 2001-ci ildə Asiya, Avropa və Şimali Amerikadan olan 17 milli tualet assosiasiyasının 200-dən çox nümayəndəsi Sinqapurda tualet problemlərinə həsr olunmuş beynəlxalq konfrans keçirərək noyabrın 19-nu Dünya Tualet Günü elan edirlər və 2013-cü ildə BMT-nin Baş Assambleyası noyabrın 19-nun Dünya Tualet Günü kimi qeyd edilməsi haqqında qətnamə qəbul edir.

İndi gələk "Sakinlər Qardabani meriyasının fəaliyyətindən razıdırmı?" sualına "sakinlərin" verdiyi cavaba. Yuxarıda da qeyd etdim ki, müxbir cəmi-cümlətanı dörd nəfəri danışdırır və bu dörd nəfərdən üçü narazılığını bildirir. Nədən?.. Bəli, düz tapdınız: çayxanada tualetin olmamasından! Sən demə, Qardabani "sakinlərinin" (daha doğrusu üçcə nəfərin) bütün problemləri həll olunub, qalıb bircə tualet problemi. Sən demə, Qardabani "sakinləri" (daha doğrusu üçcə nəfər) meriyadan çayxanada tualetin olmamasına görə narazıdırlar təkcə. Başqa narazıçılıqları yoxdur. Çayxanada tualet olsa zəhmət çəkib ehtiyacını ödəmək üçün evə getməyə də gərək olmaz, elə səhər gəl, çaydan iç, tualetə get, çaydan iç, tualetə get, axşam da evə yatmağa gedərsən. Romantika!

Amma öz aramızdır, meriyanın yerinə olsaydım sözügedən çayxanaya tualet tikmək üçün icazə verərdim. Axı səndən nə gedir? Həm öz hesablarına tualet tikəcəklər, həm də ki, meriyanın canı narazı sakinlərdən dincələcək.

Bir də ki, sakinlərin bu narazılığı dünya tualet assosiasiyalarının qulağına çatsa məsələ böyüyəcək, meriyanın da başı beynəlxalq müstəvidə ağrıyacaq. Nəyə görə? Bir qoxulu tualetə görə! Bir də gördün sakinlər əllərində plakat Dünya Tualet Günü meriyanın qarşısında etiraz aksiyası keçirir.

Məncə, sakinlər tualet problemlərinin həlli üçün meriyaya yox, məhz tualet assosiasiyasına, BMT-yə müraciət etsələr məsələ həllini daha tez tapmış olar. Mənim fikrimcə də hər çayxanada, hər parkda, hər bazarda, hər küçədə, hər yeraltı keçiddə tualet olsa yaxşı olar, ən azından şəhərimiz üfunət qoxumaz. Bəs siz meriyanın fəaliyyətindən razısınızmı?

## ÖLKƏDƏ Aİ VƏ NATO-YA ÜZVLÜYÜ DƏSTƏKLƏYƏNLƏRİN SAYI ARTIB



ABŞ-ın Milli Demokratiya İnstitutunun (NDI) Gürcüstanda keçirdiyi ictimai rəy sorğusunun nəticəsinə əsasən, respodentlərin 83 %-i ölkənin Avropa İttifaqına (Aİ) üzvlüyünü dəktəkləyir.

Rəyi soruşulanların 8 %-i Aİ-yə üzvlüyü dəstəkləməyib, digər 8 %-i isə müvafiq suala cavab verə bilməyib.

Sorğuda Gürcüstanın NATO-ya üzvlüyünü dəstəkləyənlərin faiz göstəricisi isə 77 % təşkil edib. Ölkənin bu məqsədini 11 % dəstəkləməyib, 12 %-i isə sualı cavablamaqda çətinlik çəkib.

Sorğu 2021-ci ilin 7-13 dekabr tarixində telefonla aparılıb və 2 099 nəfərin rəyi öyrənilib.

Qeyd edək ki, NDI-nin ötən ilin yanvarında apardığı araşdırmaya əsasən, Gürcüstanın Aİ-yə üzvlüyünü sorğuda iştirak edənlərin 80 %-i, NATO-ya qoşulmanı isə 74 %-i dəstəkləyib.

## AMİRAN QAMKRELİDZE: YOLUXMA HALLARININ 90 %-İ "OMİKRON" ŞTAMININ PAYINA DÜŞÜR




Xəstəliklərə Nəzarət və İctimai Sağlamlıq Milli Mərkəzinin rəhbəri Amiran Qamkrelidze bildirib ki, hazırda ölkədə COVID-19-a yoluxma hallarının 90 %-i "Omikron" ştamının payına düşür.

A.Qamkrelidze deyib ki, yaxın iki həftə ərzində "Omikron"a yoluxma halları daha da artacaq.

Qeyd edək ki, ölkədə "Omikron"a ilk yoluxma halı ötən il dekabrın 20-də təsdiqlənib.

## "GÜRCÜSTAN HAVA YOLLARI" SATIŞA ÇIXARILIB



Gürcüstanın ən iri aviaşirkəti – "Gürcüstan Hava Yolları" satışa çıxarılıb. Bu barədə aviaşirkətin keçmiş baş direktoru, "Georgia Business Brokerage" broker şirkətinin rəhbəri Roman Bokeria bildirib.

O, şirkətin 150 milyon ABŞ dollarına satıldığını deyib.

R.Bokeria qeyd edib ki, qanunvericiliyə əsasən, xarici fiziki və yaxud hüquqi şəxs şirkətin səhmlərinin yalnız 49 %-nə sahiblənə bilər. O hesab edir ki, investorların şirkətə etibarının artırılması məqsədilə hökumət səhmlərin kiçik hissəsini ala bilər.

Qeyd edək ki, 1993-cü ildə yaradılmış "Gürcüstan Hava Yolları" şirkəti (keçmiş "Airzena") bu yaxınlarda müflis elan olunub. Özəl aviaşirkətin 16 min fərdi şəxs və 70-dən çox şirkət qarşısında 176 milyon lari məbləğində borcu yığılıb. Tbilisi Şəhər Məhkəməsinin qərarı ilə "Gürcüstan Hava Yolları" reabilitasiya mərhələsinə keçib.

## TBİLİSİ-MOSKVA REYSİ NİYƏ LƏĞV OLUNDU?



Tbilisi-Moskva-Tbilisi reysinin ləğvi barədə qərarı "Gürcüstan Hava Yolları" şirkəti özü müstəqil olaraq qəbul edib. Bu barədə Rusiyanın Federal Hava Nəqliyyatı Agentliyinin ("Rosaviasiya") məlumatında bildirilib.

Qeyd olunub ki, "Rosaviasiya" tərəfindən 28 yanvar 2022-ci il tarixinə təyin olunmuş Tbilisi-Moskva-Tbilisi reysinin yerinə yetirilməsi üçün "Gürcüstan Hava Yolları"na icazə təqdim olunub və ləğv edilməyib.

Xatırladaq ki, Rusiya və Gürcüstan arasında birbaşa uçuşlar 2019-cu ilin iyulundan dayandırılıb. Yanvarın 28-i saat 10:00-da "Gürcüstan Hava Yolları" Tbilisi-Moskva-Tbilisi istiqaməti üzrə çarter reysi yerinə yetirməli idi, lakin uçuş ləğv olunub. Aviaşirkətin təsisçisi Tamaz Qaiaşvili yerli mətbuata açıqlamasında bildirib ki, reysin həyata keçirilməsi üçün Rusiya tərəfindən icazə ləğv olunub. O qeyd edib ki, buna səbəb reys ətrafında mətbuatda qaldırılan ajiotaj və bir sıra öhdəliklərin yerinə yetirilməməsidir.

## BAŞ NAZİR TÜRKİYƏ SƏFİRİ İLƏ GÖRÜŞÜB



"Qonşu ölkələrlə effektiv regional əməkdaşlıq təhlükəsizlik, sabitlik və dayanıqlı inkişafa aparan yoldur". Bunu Baş nazir İrakli Qaribaşvili Türkiyənin Gürcüstandakı səfiri Fatma Ceren Yazqanla görüşdə deyib.

Tərəflər iki ölkə arasında strateji tərəfdaşlıq və ikitərəfli münasibətlərdə müsbət dinamikanı müzakirə ediblər. Müzakirə olunan əsas məsələlərdən biri Türkiyədən Gürcüstana yüksək keyfiyyətli dərmanların idxalı olub. Qeyd olunub ki, Türkiyədən medikamentlərin tədarükü Gürcüstanda dərmanların qiymətinin əhəmiyyətli dərəcədə aşağı düşməsinə kömək edəcək.

Görüşdə qeyd olunub ki, mövcud regional layihələr effektiv strateji tərəfdaşlıq, dayanıqlı inkişaf və Gürcüstanla Türkiyə arasında etibarlı tərəfdaşlığın bariz nümunəsidir. Vurğulanıb ki, bu layihələr ölkələrə daha çox iqtisadi müstəqillik, təhlükəsizlik və davamlılıq gətirir.

Tərəflər siyasi və iqtisadi sahələrdə əməkdaşlığın bundan sonra da dərinləşdirilməsinə dair hazırlıq ifadə ediblər.

Görüşdə iki ölkə arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının növbəti toplantısına və pandemiyaya qarşı mübarizədə birgə səylərə də diqqət yönəldilib.

Hökumət başçısı Gürcüstanın ərazi bütövlüyü və suverenliyinə göstərdiyi qətiyyətli dəstəyə görə Türkiyə tərəfinə minnətdarlığını bildirib. O, Türkiyə səfirinin ikitərəfli münasibətlərin inkişafına əhəmiyyətli töhfə verdiyini qeyd edib.

## TÜRKİYƏ VƏ GÜRCÜSTAN XİN RƏSMİLƏRİ REGIONAL TƏHLÜKƏSİZLİYİ MÜZAKİRƏ EDİBLƏR



Gürcüstanın xarici işlər nazirinin birinci müavini Laşa Darsalia Türkiyədə işgüzar səfərdə olub.

L.Darsalia səfər çərçivəsində Türkiyənin XİN başçısının müavini Sedat Önalla görüşüb. Görüşdə ölkələr arasında ikitərəfli münasibətlərin gündəliyində duran məsələlər və strateji tərəfdaşlığın dərinləşdirilməsi ilə bağlı perspektivlər müzakirə olunub.

Tərəflər Gürcüstan və Türkiyə arasında siyasi, ticari-iqtisadi, nəqliyyat, energetika və digər sahələrdə uğurlu və məhsuldar əməkdaşlıqdan məmnunluq ifadə ediblər.

Müzakirələr zamanı NATO-Gürcüstan əməkdaşlığı, qlobal və regional təhlükəsizlik məsələləri ətrafında da fikir mübadiləsi aparılıb.

Türkiyə tərəfi Gürcüstanın suverenliyi və ərazi bütövlüyünə, Avroatlantik səylərinə dəstəyini bir daha təsdiqləyib.

Sonda tərəflər iki ölkə arasında məhsuldar əməkdaşlığın davam etdirilməsi və fəallaşdırılmasına dair hazırlıqlarını ifadə ediblər.

## TÜRKİYƏ MARNEULİ AERODROMU ÜÇÜN XÜSUSİ TEXNİKA VERİB



Türkiyə Cümhuriyyəti Gürcüstanın Müdafiə Qüvvələrinə xüsusi texnika təqdim edib. Bu barədə Gürcüstanın Müdafiə Nazirliyindən bildirilib.

11 ədəd təchizat maşını, iki ədəd mikroavtobus, iki ədəd traktor və digər müxtəlif texniki vasitələrdən Marneuli aerodromunun maddi-texniki imkanlarının yaxşılaşdırılması üçün istifadə olunacaq.

Gürcüstanın müdafiə naziri Cuanşer Burçuladze xüsusi texnikaya baxış keçirib və onların imkanları ilə tanış olub. O, logistik avadanlıqların təqdim olunmasına görə Türkiyənin Gürcüstandakı səfiri xanım Fatma Ceren Yazqana təşəkkür edib.

Xüsusi texnika Türkiyə və Gürcüstan hökumətləri arasında hərbi maliyyə əməkdaşlığına dair imzalanmış saziş çərçivəsində təhvil verilib.



## SÖZÜN DƏYƏRİ



Hacı BƏKİROĞLU
hacihaciyev@hotmail.com

İnsana bu dünyadakı varlıqların ən şərəflisidir deyilir. Bunun üçündür ki, insanı digər varlıqlardan fərqləndirən, istəyini, amalını, məramını ifadə etmək üçün ona köməkçi olan ən özəl xüsusiyyətlərindən biri də danışmaqdır. Atalarımızdan da belə bir misal var ki, insanlar danışa-danışa anlaşarlar. Ancaq bu danışmağın da bir həddi, bir ədəbi var. Bu gün küçəyə çıxırsan hər kəs danışır. İnsanı heyrətə gətirən tərəfi isə odur ki, böyüklər uşaq sözünü, uşaqlar isə böyüklərin danışacağı sözləri danışır. Demək olar ki, bu danışıqlarda isə faydalı heç bir şey yoxdur.

Bəli, dilin sümüyü yoxdur. Onun üçün olmalıdır ki, bir çox din böyükləri həmişə əlinə, dilinə və belinə sahib çıx buyurmuşlar. Çünki insanın başına nə gəlsə həmişə dilinin ucbatından gəlir.

Susmaq isə çox vaxt sahibini səhv başa düşülmələrdən və ya istəmədiyi şeyləri eşitməkdən qurtarar və dilin bəlasından əmin olar. Böyüklərimizin bu sözü hər birimiz üçün ölçü olmalıdır: "Söyləyərsənsə doğru söylə, sözündən ibrət alsınlar,

Söyləməzsənsə sükut et, səni adam sansınlar'".

Nə yazıq ki, bu gün bir çox insan hakim olmadığı mövzularda özünü bilgili sayaraq hər söhbətin arasına girir, bildiyi, bilmədiyi nə varsa danışır. Bu isə, nəticədə o şəxsin özünü dəyərdən salır.

Danışmaqla sükut arasında qorunması lazım olan bir tarazlıq vardır. Nə qədər danışmalıyıq və hansı nöqtədən sonra sükut etməliyik. Nəyi necə və nə şəkildə danışmağımız lazım olduğu da işin fərqli bir yönüdür. Harada nə gəldi danışmaq, ya da danışarkən həssas davranmamaq müsəlmana yaraşan hal deyil. Söz ağızdan bir dəfə çıxır. Səhv etmirəmsə həzrət Əli buyurur ki, "Söz ağızdan çıxmadan əvvəl o sənin əsirin, ağızdan çıxdıqdan sonra isə sən onun əsirisən". Bununla da anlaşılır ki, insan harada və nə danışdığına diqqət etməlidir. Burada bu deyim də yerinə düşər: "Danışmaq gümüşdürsə, susmaq qızıldır".

Mənim zənnimcə, danışıq tərzi, yəni ədəbli danışmaq və ya ağzına gələni danışmaq ilk öncə ailədəki tərbiyədən qaynaqlanır. Çünki insanın davamlı olaraq evdə eşitdiyi danışıq tərzləri onun həyatında böyük rol oynayır. Əgər evdəki böyüklər bir-biri ilə xoş danışsa, başqaları haqqında gözəl sözlər sərf etsə, uşaq da onu qavrayacaq və o şəkildə həyatına yansıdacaq. Yox, əgər uşaqlıqdan ona söy, buna belə de kimi ədəbsiz və əxlaqsız sözlər öyrədərlərsə sonradan nə etsələr də onu tərgidə bilməyəcəklər.

Nəticə etibarı ilə danışıqlarımıza və susqunluğumuza sahib olarıqsa qazancda olan bizlər olarıq. Ən əsası isə övladımızı tərbiyə edərkən onlara elə gözəl və düzgün danışıq öyrətməliyik ki, onunla dialoqda olanlar bizə söymək əvəzinə əhsən desinlər.

Dahi Nizami Gəncəvi necə də gözəl ifadə edib bu halı:
Sözün də su kimi lətafəti var,
Hər sözü az demək daha xoş olar.
Bir inci saflığı varsa da suda,
Artıq içiləndə dərd verir o da.
İnci tək sözlər seç, az danış, az din,
Qoy az sözlərinlə dünya bəzənsin.
Az sözün inci tək mənası solmaz,
Çox sözün kərpic tək qiyməti olmaz.

## FEVRALIN 1-DƏN KORONAVİRUS ÜÇÜN MƏCBURİ TESTİ HANSI MÜƏLLİMLƏR VERMƏYƏCƏK?



Xəstəliklərə Nəzarət və İctimai Sağlamlıq Milli Mərkəzinin rəhbəri Amiran Qamkrelidzenin bəyanatına əsasən, fevralın 1-dən etibarən müvəqqəti olaraq xəstəlik simptomu olmayan şəxslər üçün testlər dayandırılacaq. Yeni qayda əməkdaşlarının test vermək öhdəliyi olan bütün müəssisələrə aiddir.

Baş epidemioloq bildirib ki, polislər, həkimlər, müəllimlər – indiyə kimi məcburi testdən keçmək öhdəliyi olanlar fevralın 1-dən fərdi olaraq yalnız xəstəlik simptomları olduğu halda COVID testi verəcəklər. Yeni qayda tibb məntəqələrinin qarşısına çoxlu sayda insanların toplanmasının qarşısını almaq üçün tətbiq ediləcək.

"Şurada təkliflə çıxış etdik ki, 1 fevraldan simptomsuz şəxslərin testdən keçirilməsini müvəqqəti olaraq dayandıraq. Əsasən simptomlu şəxslər analiz olunacaq. Yaxşı olar ki, simptomlu şəxlərin hamısı test versin. İndiyənə kimi simptomsuz şəxslərdən də analiz götürürdük. Təklif belədir ki, fevraldan bunu dayandıraq və yalnız simptomlu şəxslər sürətli, PCR testlərlə analiz edilsin", - deyə mərkəz rəhbəri bildirib.

## BİLİNQUAL MƏKTƏB TƏDRİS PLANININ TƏTBİQİ ÜZRƏ KOORDİNATORUN ƏMƏKHAQQI 620 LARİ OLACAQ




Qeyri-gürcüdilli ictimai məktəblərdə bilinqual (ikidilli – red.) məktəb tədris planının tətbiqi üzrə koordinatorun əməkhaqqı 620 lari olacaq. Bu barədə Gürcüstan hökuməti qərar qəbul edib.

Dəyişiklik "Ümumi təhsilin maliyyələşdirilməsi üçün bir şagirdə ayrılmış maliyyə vauçerinin miqdarının müəyyən edilməsi barədə" sərəncamda qeyd olunub və sərəncamı Baş nazir İrakli Qaribaşvili imzalayıb.

Qeyri-gürcüdilli ictimai məktəblərdə bilinqual təhsil yanaşmasından istifadə etməklə milli tədris planının tətbiqi məqsədilə nazirlik tərəfindən seçilmiş ictimai məktəblərə, həmin sərəncamla nəzərdə tutulmuş maliyyədən əlavə nazirin fərdi inzibati-hüquqi protokolla tətbiq etdiyi qaydaya əsasən hər ay əlavə maliyyə ayrılacaq. İctimai məktəbdə bilinqual məktəb tədris planının tətbiqi üzrə koordinatorun əməkhaqqı üçün 620 lari dəyərində və "Yığım pensiyası barədə" Gürcüstan qanunun 3-cü maddəsinin 6-cı "a" altbəndi ilə nəzərdə tutulmuş pensiya vergi dəyəri – işləyən şəxsə veriləcək yığım əməkhaqqının 2 faizi qədər olacaq.

## ALİ TƏHSİL VƏ ELM DEPARTAMENTİ İKİYƏ BÖLÜNÜB



Baş nazir İrakli Qaribaşvilinin sərəncamına əsasən, Təhsil və Elm Nazirliyinin Ali Təhsil və Elm Departamenti ikiyə bölünərək ayrı-ayrı departamentlər olaraq formalaşdırılıb.

Sərəncama görə, müvafiq olaraq həmin departamentlərin hər biri üçün müəyyən edilmiş səlahiyyətlər dəyişdirilib.

Həmçinin vahid dövlət siyasətinin prioritetlərinə əsaslanaraq dövlət dilinin populyarlaşdırılması, tədqiqi və inkişafına dəstək olacaq proqramlara dəstək göstərmək, gürcü dili ikinci dil kimi və xarici dilin tədrisinə, populyarlaşdırılmasına dəstək olacaq proqramların hazırlanması, həyata keçirilməsi, maraqlanan qruplarla əlaqə və iştirakçıların marağına uyğun olaraq proqramların yeni tədris materialları ilə zənginləşdirilməsi İnzibati Departamentin səlahiyyətlərindən çıxarılıb və Elmin İnkişafı Departamentinə əlavə olunub.

## XÜSUSİ APARICI MÜƏLLİM OLMAQ ÜÇÜN NƏLƏR TƏLƏB OLUNUR?



Xüsusi baş müəllim statusu qazanmaq üçün 2021-ci ilin yayında ilk dəfə imtahan keçirildi. Milli Qiymətləndirmə və İmtahanlar Mərkəzi də bu imtahandan başqa həmçinin xüsusi aparıcı müəllim statusu qazanmaq üçün imtahan keçirməli idi. Ancaq imtahan testlərinin hazırlanması vaxtında çatdırılmadı.

Bəs xüsusi müəllimlərin aparıcı statusu qazanması üçün nə lazımdır?

**Sxemlə müəyyən olunub ki, xüsusi aparıcı müəllim statusu aşağıdakı tələblərdən birini qane edən şəxsə verilir:**

- Xüsusi təhsil üzrə doktor dərəcəsi olsun;
- Gürcüstan qanunvericiliyi ilə müəyyən edilmiş xüsusi aparıcı müəllim imtahanını vermiş olsun;
- Görmə və eşitmə qüsurlu, yaxud çox sayda sensor pozuntuları (kar və kor), ağır/dərin intellektual, davranış və emosional pozuntusu olan, xüsusi təhsilə ehtiyac duyan şagirdlərə dərs demək üçün xüsusi sertifikat proqramını keçmiş olsun.

**Bundan əlavə, aparıcı statusunu qazanmaq üçün xüsusi müəllim aşağıdakı tələblərdən birini qane etməlidir:**

- Müəllimlərin inteqrasiya edilmiş hazırlıq bakalavr-magistr təhsil proqramını, yaxud magistraturanın təhsil proqramını bitirmək nəticəsində qazanılmış magistr, yaxud ona bərabər olan akademik dərəcəsi (ümumtəhsilə uyğun pillənin, fənnin/fənlərin tədris hüququnu qeyd etməklə) olmalıdır və xüsusi müəllim hazırlıq modulu və ya müəllimlərin inteqrasiya edilmiş hazırlıq bakalavr-magistr təhsil proqramı çərçivəsində xüsusi müəllim hazırlıq modulunu keçmiş olmalıdır;
- Ən azı milli tədris planı ilə nəzərdə tutulmuş fənn/fənn qrupları istiqamətində bakalavr və ya ona bərabər akademik dərəcəsi olmalıdır və xüsusi təhsil magistr proqramını keçməlidir;
- Ali təhsili təsdiq edən sənədə əsasən müəllimlik hüququ olmalıdır. Xüsusi müəllim/müəllim olaraq işə başladıqdan 2 il ərzində xüsusi müəllim peşə inkişafı təhsil proqramını, yaxud müəllimliyə hazırlıq təhsil proqramının distant kursunu keçməlidir, Gürcüstan qanunvericiliyinə uyğun olan imtahanı verməlidir;
- Ali təhsili təsdiq edən sənədə əsasən müəllimlik hüququ olmalıdır və Gürcüstan qanunvericiliyi ilə müəyyən edilmiş müvafiq imtahanı verməlidir.

2021-ci ilin 22 yanvarında qanuna daxil edilmiş keçid müddəalarına əsasən, mərkəz 2022-ci ildən xüsusi aparıcı müəllim imtahanlarına başlamalıdır. "Naec" 2022-ci ilin müəllimlərin imtahan proqramlarını artıq yayımlayıb. Ancaq xüsusi aparıcı müəllim imtahanı haqda heç nə yayımlanmayıb. 2020-ci ilin 26 iyun tarixinə olan dövlət sərəncamında isə qeyd olunub ki, mərkəz xüsusi aparıcı müəllim imtahanını ən gec 2023-cü ilin 1 yanvarına qədər keçirməlidir.

## MƏKTƏBLƏRDƏ 2 851 TƏCRÜBƏÇİ MÜƏLLİM VAR

25 yanvarda Təhsilin İdarəsi üzrə Məlumat Sistemi tərəfindən "etaloni.ge"yə verilən məlumata əsasən, sistemdə müxtəlif statusu olan **45 989** müəllim var. Onlardan əksəriyyəti baş müəllim statusu daşıyır.

Qeyd edək ki, 2022-ci ilin 25 yanvarına olan duruma görə, məktəblərdə **2 851** təcrübəçi müəllim qalıb.

Statuslara əsasən isə müəllimlərin sayı bu cürdür:

- Baş müəllim statusu olanlar – 34 813;
- Aparıcı müəllim statusu olanlar – 7 634;
- Mentor müəllim statusu olanlar – 265;
- "Axtaran" müəllim statusu olanlar – 426;
- Təcrübəçi müəllim statusu olanlar – 2 851.

*Səhifədəki məlumatlar "etaloni.ge" saytından götürülüb.*
*Gürcü dilindən tərcümə etdi: Aynurə ƏLİYEVA*

# YANAN DA BİZ, YAMAN DA BİZ



Məktəbə gedəndə iki əmim, iki bibim və bir dayım müəllim işləyirdi. Anam dəcəl, ərköyün qızına tapşırdı ki, bax ha, onlar evdə qohumdurlar, məktəbdə müəllim! Səhvin olsa danlayacaqlar da, cəzalandıracaqlar da. Çox hörmətli və məsafəli olmalısan. Küsmək, cavab qaytarmaq olmaz. Səni məktəbdən qovarlar.

Bax beləcə öyüdlə getdik məktəbə. Tək mən yox. 80-lərin uşaqları. Əmim fizikadan, bibim riyaziyyatdan dərs dedilər. Hamı məndən razı olsa da, onlar razı olmadı, daim daha yaxşı çalış dedilər. İncisəm də, küssəm də dinməmmədim, axı müəllimim idilər.

Bakı Dövlət Universitetində tələbə olsam da, məşhur professorlardan dərs alsam da, neçə mötəbər tədbirlərin iştirakçısı olsam da, məktəbli günlərimi xatırlayanda ilk növbədə orta məktəb müəllimlərimi çox böyük hörmətlə xatırlamışam.

Məktəbmizdə Əbəş müəllimin şapalağı adla idi. Hər şagird o şapalaqdan sığortalana bilməzdi. İsgəndər müəllimin, Nizami müəllimin, Məsim müəllimin çox vaxt əllərində şuvurtu çubuqları olardı. İstədikləri vaxt o çubuqları pəncərənin önünə də qoya bilərdilər, kimsə risq edib əl vura bilməzdi. Musa müəllim qəflətən oğlanların ayağını basar və qaçmağa qoymazdı, sonra da qulağını burardı. Badisəba müəllimin böyük qaşlı üzüyü dəcəllərin başında taqqıldayardı. Məsim müəllimin zolaqlı çubuğu vardı. Ələddin müəllimin qorxusundan kimsə partaların üstünə xətt belə çəkə bilməzdi. Əlixan müəllimin hökmlü, Nigar müəllimin bəlağətli səsi, Cahangir müəllimin zəhmi, Əşrəf müəllimin mülayim rəftarı... onlarla saya biləcəklərim. Heç unutmadım ki! Unudarammı?!

Arı müxtəlif çiçəklərə qonur, onlardan nektar alır, sonra o müxtəlif şirələri öz ağız suyu ilə qarışdırıb təbiətin əvəzsiz möcüzəsini – bal hazırlayır. Balda nektar olmasa da ibtidai şirə var, bax o şirə təkandır.

Biz dünyaya fərd kimi gəlirik, sonra həyat bizi bərki, boşu gördürüb götürtməyiylə şəxsiyyətə çevirir. Biz arı kimi təcrübələrimizdən yığa-yığa özümüzü yaradırıq. O yaradılışda Əbəş müəllimin şilləsinin xofu, Məsim müəllimin çubuğunun ağırlığı, Ələddin müəllimin acıqlı səsi, Rasimə müəllimin hikkəsi, Badisəba müəllimin toqqalı üzüyü olmasaydı mən mən olmazdım.Vallah!

Mən nümunəvi şagird olsam da bəzən danlanan kütlənin quru odunda yaş olsam belə evdə deyərdimmi ki, danlandım. Desəm belə məni günahkar edərdilər, eləcə də hamımız. Yadıma gəlmirdi ki, hansısa valideyn şikayət edəydi ki, uşağımı niyə cəzalandırırsız. Çünki valideyn anlayırdı ki,müəllim yalnız onun uşağının yaxşılığı üçün danlayır, bu danlaq onu şəxsiyyətə tərəf aparır, bax bu anlayış müəllimi çox hörmətli edirdi.

Biz hələ quruluş dəyişən zamana düşdük. Bizdən əvvəl müəllim daha hörmətli imiş, çörək yemir, su içmir düşünməklə müəllimi müqəddəsləşdirirdilər.

Əzizim əziz, tərbiyəsi ondan əziz – deməklə sağlam mühit yaratdılar. O mihitin çiçəkləri müəllimlər, arıları da şağirdlər idilər. Sağlam çiçəklərin təmiz xətti – balı yaranırdı.

Bəs bu gün?

Müəllimlərimizin az qala kütləvi mənən qırıldığı zamanmı gəldi? Nədən axı? Hamımızın həyat yolunda müəllim haqqı yoxmu? O haqqı itirməklə haqqı danmırıqmı? O ağırlıqla necə yaşayacağıq bəs?

Abilərimiz öz ləhcəsində müəllimə öyrətmən deyirlər, müraciətdə XOCAM, özü də mənsubiyyətlə. Müəllimə böyük hörmət!

Nə gözəl!!!

Evdə iki uşağını nizama sala bilməyən ana 25-30 uşağın içində sağlığını şagirdlərinin həyatında şam kimi əridən, işığa can atan uşaqlar üçün bələdçi olan müəllimi necə aşağılayırlar? Güya həmin valideyn öz uşağını heç cəzalandırmır?

Faciəmiz bilirsiz nədir? Faciə odur ki, bugünkü nə nektarı, nə də balı tanımayan uşaqlar sabah cəmiyyətin aparıcısı olacaqlar; hörmətsiz, mərifətsiz, böyük-kiçik yeri bilməyən, böyüyünü qiymətləndirməyən cəmiyyət manqurtlaşacaq! Belə cəmiyyətə virus lazım deyil, onlar elə öz-özlərini tükədəcəklər, ağzı açıq quyudakıların ayaqdan çəkmələri kimi.

Bu gün haradasa bir müəllimə hörmətsizlik görəndə demək istəyirəm: "Dayan, Yer kürəsi, mən düşmək istəyirəm". Sonra bir "Sehirli xalat" istəyirəm. Məni məktəb illərinə qaytarsın, o əvəzsiz günlərə, xatirəsi daim əziz olan müəllimlərimlə yenidən şagird həyatıma.

Əziz müəllimlərim, Sizin sayəsində Kim oldum! Hər addımımda, hər günümdə, hər sözümdə sizləri

xatırlayıram! Həyatımda gördüyüm minlərlə insanların cərgəsində ön sırada dayanan müəllimlərim mənəviyyatımın müqəddəsləridir. Qarşılarında baş əyirəm!

**Esmira ƏLƏKBƏRLİ**

Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi



# YER ÜZÜNÜN ZİBİLİ VƏ SƏRVƏTİ

Son vaxtlar internetdə gəzinərkən bir çox məlumatlarla rastlaşıram. Bu məlumatlardan bir qismini bu yazımda sadalayacam.

Hər il zibilliklərə bir trilyon ədəd miqdarında plastik torba, 500 milyon ədəd plastik butulka atırıq. İstifadə etdiyimiz bu zibillər zibilliklərə, oradan çaylara, çaylardan dənizlərə, dənizlərdən isə okeanlara gedib çıxdı. Bu zibillər okeanın bir yerində birləşərək böyük bir ada əmələ gətirdi. Bu adanın sahəsi isə 3,5 milyon km qədərdir. Bu 3,5 milyon kilometrlik sahə ada deyil, qitə adlandırılsa daha doğru olar. Bu qitənin hətta bir adı da var: Böyük Pasifik zibillik zonası. Bu plastik maddələrin isə yenidən istifadəsi mümkündür. Buna sübut çalışdığım iş yerinin yaxınlığındakı fabrikadır. Deməli, orada plastik qutuları parçalayıb dırnaq boyda edən qurğular var. Parçalara ayrılmış bu plastik maddələr yenidən istifadə edilmək üçün böyük çuvallara doldurulub Türkiyəyə göndərilir.

Dünyada istehsal edilən qidanın haradasa üç hissədən bir hissəsi zibilliklərə gedir. Zibilliklərə gedən bu qidanın az bir qismi ilə belə dünyadakı ac insanların hamısını doyurmaq olar. Bu israfın ölçüsü isə bir trilyon dollardır. Bu məbləğ ilə dünyadakı ac insanların 15 qatını belə doyurmaq olar. Çox təriflədiyimiz Avropada belə istehsal edilən qidanın 20 %-i zibilliklərə gedir. Gürcüstanda isə bu miqdar ildə 900 min tondur.

Çörəyə gəldikdə isə sadəcə Türkiyədə gündə 12 milyon ədəd çörək zibilliyə gedir.

Təbii ki, ölkəmizdə də çörək israfına rast gəlmək olar (gürcü mənbələrində çörək israfı ilə bağlı məlumat tapa bilmədim), Gürcüstanda yaşadığımız üçün bunu hamımız müşahidə edə bilərik.

Dünyadakı qida istehsalını azaltmaq mümkün deyil (israfı aza endirmək üçün), bu heç lazım da deyil. Ancaq israfın qarşısını (hamı əlbir olsa) müəyyən qədər almaq olar. Ölkəmizdə demək olar ki, heç kim acından ölmür, ancaq küçələrdə böyük miqdarda ac heyvanlar var. Zibil qablarına atılan çörək və digər qida qalıqları ilə bu heyvanları doyurmaq olar (Rahatlıqla deyə bilərəm ki, bu zibil qablarına küçə heyvanlarının əli çatmır). Dünyada da, ölkəmizdə də evlərdə bahalı cins ev heyvanları bəslənilir. Bu heyvanlar üçün xüsusi yemlər istehsal olunur. Bu cür heyvanları bəsləyən insanlar təbiidir ki, bu xüsusi qidalardan istifadə edir. Əslində isə xüsusi heyvan yemlərinə ehtiyac duymadan bu qida qalıqları ilə bu cür ev heyvanlarını doyurmaq olar. Özümüzdən misal çəkim: biz istifadə etdiyimiz çörək artıqları ilə itimizi və toyuqlarımızı doyururuq. Hətta çalışdığım iş yerində belə bəslədiyimiz sahibsiz heyvanlar var.

Yaşadığımız yer kürəsində qızılın miqdarı da azdır, demək olar. Biz isə özümüzə qızıldan dişlər düzəldirik, bu dişlərlə yaşayıb bu dişlərlə ölür və bu qızıl dişlərlə birlikdə gömülürük. Yəni başqaları qızılı yerdən çıxardır, biz isə yerə gömürük.

Hətta ildən-ilə kosmosa xüsusi cihazların hissələri şəklində nə qədər metal göndəririk, bu metallar isə bir daha yer üzünə qayıtmır. Yəni yer üzünün sərvətini bir yanda yerə gömür, bir yanda göyə çıxardırıq.

İndi isə bizi gözləyən ən böyük təhlükələrdən biri ilə tanış olaq. Yer üzünün neft ehtiyatı getdikcə azalır. Deyilənə görə, önümüzdəki 50 ildə bu neft ehtiyatı tamamən tükənəcək. Bunun isə qabağını almaq qeyri mümkündür.

Tək çıxış yolu isə elektriklə işləyə bilən nəqliyyat vasitələridir. Bu sahədə də istənilən inkişaf gözə dəymir. Buna səbəb də, ola bilsin ki, dünyadakı böyük neft şirkətlərinin təzyiqidir. Bəlkə də deyil, nə bilmək olar. Bu da bir ehtimaldır.

Deyilənə görə, dövrümüz antroposen dövrüdür. Bunun nə olduğunu bilmirəm. Öz-özlüyümdə bu dövrü zibil dövrü adlandırıram. Biz insanlar o qədər inkişaf etdik ki, daş dövründən zibil dövrünə gəldik.

Yəni yer üzünün sərvəti azalır zibili çoxalır. Bu azalmanın qarşısını ala bilməsək də, zibilin çoxalmasının qarşısını ala bilərik.

**Vüqar VƏKİLOĞLU**

# TÜRKDİLLİ XALQLARIN ƏXLAQİ-ESTETİK ALƏMİ

## Nə vaxtsa ağı qaradan seçməyin vaxtı gələcək
## (Türk folklorunun estetikası və mənəvi əqidəsi)

*(əvvəli ötən sayda)*

Elmi ədəbiyyatda "Dədə Qorqud" haqlı olaraq qədim Oğuz ənənələrinə nüvafiq xalq söyləyicilərinin – ozanların qopuzların (simli musiqi alətidir) müşayiəti ilə oxuduğu xalq qəhrəmanlıq eposu kimi qəbul edilmişdir (Жирмунский В.М., Огузкий героический эпос и "Книга Коркуда", стр. 242). Jirmunskinin bizi tanış etdiyinə görə, bu cür eposun iki cür növü mövcuddur: Birincisi ("Alpamış" özbək versiyası) – Burada əsərin bir hissəsi təhkiyə ilə, qəhrəmanın sözləri isə şeir formasında verilir. Nəsr hissələri yalnız birləşdirici, keçid funksiyasını yerinə yetirir. Daha sonraların olduğu ikinci növ – Burada əsas hissə nəsr ilə verilir və yalnız qəhrəmanların mahnıları və sözləri şeir ilə. "Dədə Qorqud"a gəldikdə isə, bu iki növ arasında orta yeri tutur, qəhrəmanların mənəvi əhval-ruhiyyəsi, elə götürək, söhbəti şeir formasını alır (Elə orada, səh. 242). V.Jirmunskinin görüş dairəsi məqbuldur, lakin heç də asan dəf olunmayan bir çətinlik ortaya çıxır. Məsələ burasındadır ki, bu əsərlər yaradılanda Oğuz bədii şifahi xalq ədəbiyyatında nəsr və nəzm strukturları bir-birindən ayrılmamışdır. Daha doğrusu, şeir növü, onun bünyəsi və forması formalaşmamışdır və nəsrdən heç də çox fərqlənmirdi. İllah da ki, əgər bu nəsr ritmik xarakter daşıyırdısa. Bu məsələ barədə aşağıda daha geniş söhbət açmalı olacağam. İndi isə o qeydin üzərində dayanacağam ki, "Dədə Qorqud" eposu 12 dastandan (boydan) ibarətdir ki, bunlar da, bəzi fəaliyyət göstərən qəhrəmanların adlarını nəzərə almasaq, birbirilə əlaqədar deyildir. Bunlar ünlü, hər şeyi bilən ozan Dədə Qorqud tərəfindən söylənilən, məğzinə görə də, formasına görə də bitmiş rəvayətlərdir və buna da uyğun olaraq onlar bir kompozisiya çərçivəsinə salınmışdır. Lakin, zənn edirəm ki, əgər bu əsərlər silsiləsinin kompozisiya birliyini yuxarıda qeyd olunan prinsip ilə sizə izah etsəm səhv olar. Burada ən əhəmiyyətlisi odur ki, bu əsərlər bizə bir mənəvi əhval-ruhiyyəni, əxlaqi və böyük gözəlliyin dərk edilməsinin bir görüş dairəsini, qəhrəmanlıq və dostluğun bir məsafəsini, məhəbbət və düşmənçiliyin bir anlayışını, həyat tərzinin və ənənələrin bir mənzərəsini bizə çatdırır ki, bu da əsrlər boyu Dədə Qorqud tərəfindən aşkar edilmiş və Oğuz düşüncəsinin arxetip və rəmzi olaraq düşünülüb tapılmışdır ki, bunu da oğuzlar işləyib hazırladılar, cana gətirdilər. Bax, Dədə Qorqudu bu qəhrəmanlıq eposunu yazan necə xarakterizə edir: "Rəsul əleyhissəlam zamanına yaqın Bayat boyından, Qorqud ata deyərlər, bir ər qopdu. Oğuzun ol kişi tamam bilicisiydi. Nə dersə, olurdu. Qayibdən dürlü xəbər söylərdi. Haq Taala anın könlünə ilham edərdi (Dedem Korkutun kitabı (Orhan Şaik Gökyayın redaktorluğu ilə) səh. 2. Bax. "Dədə Qorqudun kitabı", Tbilisi, 1987, səh. 29). Bu qısa xasiyyətnamədən də görünür ki, bizim işimiz adi ozan ilə deyil, eləcə də onun simasında hər şeyi bilən, ilahi sirlərin moizəçisi, gələcəkdən xəbər verən və öncəgörən bir şəxs bizim qarşımızda dayanır. V.Bartoldun müəyyən etdiyinə görə, Məhəmməd peyğəmbərin zamanında doğulmuş "nəhəng deyil, partiarx idi – xalq müdrikliyinin ən başlıca və əsas əksetdiricisi idi ki, onun da əxlaqi (mənəvi) nüfuzuna bütün xalq tabe olurdu (Бартольд В.В., Китаби Коркуд, T.I, стр. 204).

Bir sözlə, yuxarıda qeyd etdiyimiz kimi, Dədə Qorqud hər şeydən öncə əxlaq və adət-ənənələrinin carçısı və müəllimi kimi türkdilli xalqlar arasında böyük populyarlığa və məhəbbətə malikdir. Onun artıq gələcəkdən xəbər verən şəxs olaraq böyük özbək şairi Əlişir Nəvai də xatırlayır (Жирмунский В.М., Огузкий героический эпос и "Книга Коркуда", стр. 242). Türkmən genelaogiyasının müəllifi, tamamilə xalq arasında mövcud ənənələrə və əfsanələrə istinad edən Əbül Qazi məlumat verir ki, Qorqud 295 il yaşamış və üç hökmdara vəzir olmuşdur (Кононов А.Н., Родословная турк, М.-Л.,1958, стр. 57), halbuki müəllifim sonrakı məlumatına görə, Qorqud beş xanın müasiridir (Elə orada, səh 60). Əbül Qazinin söylədiklərində xronologiya və faktiki material tarixi gerçəklikdən kənara çıxmasına baxmayaraq bir şey hər halda diqqətəlayiqdir: Hər yerdə və hər zaman Dədə Qorqud müdrik nəsiyyətverici, mənəviyyat dərsi keçən şəxs kimi qarşımıza çıxır ki, bunun da dediyi fikir şübhə doğurmur və müəyyən görüş dairəsi ilə Dədə Qorqudun eposda çəkilmiş etnik portretinə əks-səda verir.

Qorqud bir nüfuzlu vəzir kimi ilkin mənbələrdə də xatırlanır. Belə, məsələn, Rəşidəddinin əsərində: Məşhur "Cəmi ət-Təvarix"ə (Tarixlər toplusu) (XIV əsrin başlanğıcı) daxil edilən "Tarixi-Oğuz və türkan və hekayəti-cahangiri" əsərində. Burada Qorqudun atasının da adı xatırlanır. Halbuki, Rəşidəddin də xalq rəvayətlərinə istinad edir və nəhayət o da yekun nəticə çıxarır ki, Dədə Qorqud müdrik insan, bilikli və möcüzə yaradan idi. O, gözəl sözlər söyləyirdi (güman ki, poeziya nəzərdə tutulur), 295 il yaşayıb və onun barəsində çoxlu rəvayət (hekayə) mövcuddur ki, bunlar da xüsusi forma ilə verilir (Orhan Şaik Gökyay, Dede Korkut, İst. 1938, s. XVIII-XXII).

Əbül Qazi və Rəşidəddinin Qorqud barədə xalq rəvayətlərini bizə çatdıran tarixi xronikaları, hər şeydən öncə o baxımdan maraqlıdır ki, artıq XIV-XV əsrlərdə Qorqud şəxsiyyəti bir müdrik öyüdverici kimi məşhur idi. Onun vəzirliyinə gəldikdə isə, mənim fikrimcə, bu xalq fantaziyasının bəhrəsidir və oğuzların erkən ənənəvi baxışı ilə şərtləndirilmişdir ki, bu da ideal vəzir barədə xalqın təsəvvürünə əsaslanır. Lakin həqiqətdə xalqın görüş dairəsi vəzirlik mərhələsindən kənara çıxdı. O, öncəgörən və gələcək taleyi bilən kimi bizə təqdim olunur ki, bu da artıq insanın gələcək taleyini görən şaman təbiətini-xarakterini və peşəsinin spesifikliyini daha çox bizə xatırladır. Halbuki, Şamanizm qədim türk tayfaları arasında geniş yayılan din olduğundan bu bizi təəccübləndirməməlidir.

Bir sözlə, Sırdəryadan başlamış və Azərbaycanın yamaclarına, dağ-təpələrinə qədər oğuzların köçəriliyinin və məskunlaşmasının baş verdiyi bu geniş ərazidə Qorqudun adı böyük populyarlığa malik idi və o bir çox əfsanənin baş personajı idi. Onun qəbrini də müxtəlif diyarlarda ibadətgaha çevirmişlər, bu da ondan xəbər verir ki, türk xalqı tərəfindən müqəddəs olaraq hesab edilmişdir (Жирмунский В.М., adı çəkilən əsəri, səh. 158-173). Bununla əlaqədar sözüm onsuz da uzandı və daha deməyəcəyəm, çünki V.Jirmunskinin həqiqi baxış dairəsi ilə: "Əfsanəvi Qorqudun tarixi prototipinin müəyyən edilməsi böyük elmi marağı nə zaman təşkil edir ki: Xalq rəvayətlərinin yaratdığı və Orta Asiyanın köçəri tayfalarının patriarxal əsrlərin mühüm hadisəsinin tipik sosial ümumiləşdirməsini təşkil edən toplum simasıdır" (Elə orada, səh. 173).

Bu dəfə mənim tədqiqatımın məqsədi məhz elə türk (oğuz) xalqları tərəfindən yaradılmış müdrik Qorqudun tipik simasıdır ki, buna da oğuzlar, elə götürək, türkdilli xalqlar milli ruh hopdurmuş və özlərinin əhəmiyyətinin, mənəvi-estetik görüş dairəsinin ifadəedicisi və carçısı, hər cür dərdin dərmanı olan, hər şeyi bilən qocaman ozanı üzərə çıxartdılar.

İndi Dədəd Qorqudun hansı müdrikliyi və mənəviyyatı moizə etdiyi barədə bir neçə söz!

Qısa, lakin bu əsərin girişində bircə açıq şəkildə verilən Dədə Qorqudun əxlaqi-etik, istərsə də fəlsəfi-estetik məcəlləsi çox diqqətəlayiqdir.

Hər şeydən öncə, Qorqudun dili ilə, bu əsərin gizli məqsədi bəyan edilib ki, bu da belə səslənir: "Qorqud min dedi və nəhayət, hökmranlıq yenə də kay tayfasına qayıdar. İndən belə qiyamət gününə qədər onu dəyişməyə heç kimin gücü çatmaz."

Bu, Osmanlıların gəlişi barədə deyilib. O yerinə yetirilib və yenə də belə olacaq" (Kitabi Dədə Qorqud, Tbilisi, 1987, səh. 19 (sonralar K.D.Q.)). Dedem Korkut kitabı (hazlırlayan Orhan Şaik Gökyay, İst. 1973, s.1 (sonralar D.K.K.), Kaçalin Mustafa S., Oğuzların Diliylə Dedem Korkutun Kitabı, Ankara, 2017, səh. 21(sonralar O.D.D.K.K.).

Məlumdur ki, çağırış vərəqi ilə – bəyanatla gizli olmadan Osmanlıların dünya hökmranlığına qarşı oğuzların iradı səslənib ki, bu da onların ulu Tanrı tərəfindən başına sığal çəkilən və xeyir-duası verilən hərbi inam qüdrətini qidalandırır və möhkəmləndirir!

Mənim fikrimcə, türklərin məğlubedilməzliyi və hərbi qüvvələrinin yenilməzliyi barədə bu inam ta qədimdən mübariz oğuzları müşaiyət edirdi və buna görə də o qədimliyin ətrini püskürür, lakin daha çox düşündürücüdür ki, bu görüş dairəsini önə çəkmək və səsləndirmək sonralar xüsusən, bu eposun yazılı şəkildə işlənib hazırlandığı zaman və türklərin Avropanın böyük hissəsini işğal edən zaman baş verməli idi.

Növbəti kəlmə artıq Dədə Qorqudun özünü bizə xarakterizə edir. Belə ki, "Oğuz tayfalarının çətinliklərini aradan götürəni" kimi bizə təqdim olunur. Daha da artıq, öyüd-nəsihət vericidir, "nə qədər tələsik iş olsa da, ona gənəşmədən görməzdilər" və ən başlıcası, "nə buyururdusa, onu sözsüz yerinə yetirirdilər" ( K.D.Q., səh. 29; D.K.K., səh. 1; O.D.D.K.K., səh.19). Qısası, bir neçə kəlmə ilə Dədə Qorqudun Oğuz tayfalarının xilaskarı və himayədarı, nəsihət verəni, müdriki kimi və sarsılmaz mənəvi avtoritetin dolğun mənzərəsi verilmişdir.

Bundan sonra Qorqudun özü söhbətə, istərsə də mahnıya başlayır ki, bu da onunla əhəmiyyətli və diqqətəlayiqdir ki, burada bütün Oğuz xalqlarının həyat tərzinin və ənənələrinin onurğa sütunu nəql olunur. Bu tayfanın xalq müdrikliyi, əxlaqi-etik inamı qəhrəmanlıq və igidlik üzrə formalaşmış görüş dairəsi və ən başlıcası, bu tövsiyə etmələr elə lakonikliklə və sadəliklə verilmişdir ki, bunun oxucuda, istərsə də dinləyicidə bir növ heyranlığa səbəb olmaması mümkün deyil.

Lakin burada mətni nəşr edənləri qeyd etməliyəm: Şaik Gökyay və Mustafa Kaçalin bu mətnin strukturunu müxtəlif cür qəbul edirlər və birincisi onu nəsr kimi hesab edir və bizə nəsr formasında verir, ikinci isə, şeir kimi, heç də əsassız olaraq qəbul edir və şeir növü kimi bizə ötürür. Lakin bu barədə aşağıda danışmalı olacağıq və indi elə birinci deyilənə qayıdaq və Qorqudun nəyi moizə etdiyini xatırlayaq:

"Qadir Tanrı verməyincə ər bayımaz.

Əzəldən yazılmasa, qul başına qəza gəlməz.

Ölən adam dirilməz.

Çıxan can gerü gəlməz." (K.D.Q., səh. 29; D.K.K., səh.1; O.D.D.K.K. səh. 19).

Gətirilən sətirlərdə gözəl lakoniklik lə və sadəliklə islam mürəbbilərinin məğzin əsas ehkamlarının camaat sayağı düşünülməsi verilib: Birinci: Allah istəməsə iş yerinə yetirilməz. İnsanın taleyini və talesizliyini, onun kasıblığını, istərsə də zənginliyini Tanrı müəyyən edir və bütün elə bunların hamısı Tanrı tərəfindən yazılmışdır. Qiyamət günü (İkinci dəfə dünyaya gəlmək) yetişməmiş, heç kimə heç nə edilmir və dünyasını dəyişənlər də dirilmirlər. Eyni zamanda hamı bilməlidir ki, canı çıxan bir daha geri qayıtmayacaq!

Qısası, hər şeyi müəyyən və təyin edən, insanın taleyini, istərsə də talesizliyini, ölən adamın nəyi dərk etməli olduğunu elə irəlicədən qaydaya salan ulu Tanrıdır. O, hər şeydən artıq mənəviyyatından ehtiyat etməlidir, nədənsə əgər onu itirsə, geri bir daha qayıtmayacaq, bu isə hər iki dünyada itib-batmağa və məhv olmağa bərabərdir.

*(davamı gələn sayda)*

Gürcü dilindən tərcümə edən:

**Mirzə MƏMMƏDOĞLU**

# NİDERLAND – PƏRDƏ ARXASINDAKI GERÇƏKLƏR

## SOSİUM

## 9. DİNİ MƏNZƏRƏNİN RƏNGARƏNGLİYİ



*(əvvəli ötən sayda)*

Niderlandda din dövlətdən ayrı yaşayır. Belə cəmiyyətlərdə insanları ən azından bunun belə olduğuna inandırmaq istəyirlər. Bizdə də eyni mənzərədir. Dövlət öz həyatını yaşayır, din də öz həyatını. Əslində bunun belə olmadığını da düşünmək olar. Nədən ki, zaman-zaman ya dinin dövlət işlərinə qarışdığını, ya da əksinə dövlətin dinin işlərinə müdaxilə etdiyinin şahidi oluruq. Bəlkə də bu iki axın, bu iki həyat bir-birləri ilə yanaşı yaşamağı, hərdən bilərəkdən və ya ehtiyatsızlıqdan bir-birinin yoluna çıxdıqlarını nəzərə almasaq, elə bu cür yola verirlər. Mən bunu onların öz ixtiyarlarına buraxmağı daha doğru hesab edirəm. Necə istəyirlər o cür də yaşasınlar. Dalaşmasan bərkişməzsən. Sınaqdan çıxmış sözdür.

Niderland müxtəlif dinlərə, məzhəblərə qulluq edən insanların ölkəsidir. Ölkənin hər yerində əski və yeni kilsələrə rast gələ bilərsən. Bu gün ölkənin hər yerində görünən bu kilsələrin hansı mübarizələrdən keçdiyini, bugünkü duruma çatana qədər nə qədər qanlar axıdıldığını, qurbanlar verildiyini tarix kitablarından axtarıb tapmaq mümkündür. Katoliklərlə protestantlar arasında baş vermiş qanlı savaşları yada salmaq kifayətdir. Roma papalarına qarşı başladılan reformasiya barədə yaqin ki, çoxunuzun xəbəriniz var. Artıq bunların dünəndə qaldığını, tarixə qovuşduğunu da bilirsiniz. İnkvizisiya tonqallarının zamanın burulğanında göylərə sovrulduğunu, Avropanın keçmişində qaldığını söyləmək olar. Həyatsa davam etməsində. Uzaqbaşı, bunları biz həmin dövrü canlandıran səhnələrdə, kinolentlərdə görürük. Tarixi yaddan çıxarmamaq, tarixin səhvlərindən doğru nəticə çıxarmaq üçün hərdən belə səhnələri izləmək də bəd deyil.

Dünən qanlı bıçaq olan məzhəblərin bir-birilə dinc yanaşı yaşamasına ən bariz nümunə kimi Niderlandı misal göstərmək olar. Katoliklərin və protestantların yan-yana mövcudluğu bunu sübut etmirmi? Avropa tarixində buna bənzər hadisələr, dünənki düşmənlərin bu gün birgə yaşamalarına dair yeni misallar da, örnəklər də gətirmək olar. İspaniyanın ən yeni tarixində ən qanlı hadisə kimi qalan, ispan cəmiyyətini parçalamağa qədər gətirən vətəndaş müharibəsinin hər iki cəbhədən olan qurbanlarının adlarının eyni bir memorialda yan-yana həkk olunması da dərs çıxarmalı, örnək götürməli bir insidentdir.

Niderlandda xristian dindarlar ölkə əhalisinin 43,4 faizini təşkil edir. Onların da çox hissəsi katoliklərdən ibarətdir. Əhalinin 5,8 faizini və ya bir milyona yaxınını müsəlmanlar təşkil edir ki, islam dininə sitayiş edənlərin sayı mühacirlərin hesabına ildən ilə artmaqdadır. Bu da müəyyən dairələri əndişələndirməkdədir. Niderlandda yəhudi icmasının tarixən mövcud olduğu da bəllidir. Bu icmaya məxsus sinaqoqlar burada nadir bir şey deyil. Ölkə əhalisinin bir qismi isə induslardan ibarətdir. Bəzi evlərin pəncərələrindən ötüb-keçənlərin üzünə gülümsəyən Budda heykəlcikləri bunu təsdiqləyir. Bütün bunlara rəğmən, Niderland əhalisinin böyük bir hissəsi – 42,7 faizi özünün heç bir dinə aid olmadığını bəyan edir. Bu göstərici ilə Niderland Avropada öndə gedir. Əhalinin bu hissəsi özünü aqnostik və ya ateist hesab edir. Bu kəsimin cəmiyyətdə böyük çəkiyə sahib olmasının bir səbəbi də, Avropanın digər ölkələrindən fərqli olaraq, Niderlandda abort, eftanaziya, fahişəlik, eynicinslilərin evliliyi, narkotiklərdən istifadə və bu qəbildən digər məqamların leqallaşdırılmasıdır.

Niderlandda dinin dövlətdən ayrılığını vurğuladıq. Müşahidələrim dinin bir küncə – kilsəyə sıxışdırıldığını, hətta həbsə məhkum edildiyini söyləməyə imkan verir. Kilsədən kənarda dinin mövcudluğu hiss edilmir kimi bir fikri səsləndirməyim şişirtmədən çox uzaqdır. Kilsələrin əksəriyyəti get-gedə turistlərin ziyarət etdiyi tarixi mədəniyyət yadigarı məkanlara çevrilməkdədir. İbadətə gələnlərin azalması səbəbindən bağlanan, qapısına qıfıl vurulan, elə bu səbəbdən də satışa çıxarılan kilsələrə də rast gəlmək mümkündür. Xristian kilsəsi öz tarixi rolunu oynamış bir durumdadır. Ömrünün qürub çağını yaşayan qoca kimi bir küncə çəkilib olub-keçənləri sərf-nəzər etməkdədir.

Niderland cəmiyyətinin tolerantlığı ilk baxışda diqqəti cəlb edir. Ancaq sənin hansı dinin təmsilçisi və ya hansı məzhəbə mənsub olmanın önəmi yoxdur kimi bir qənaətə gəlməmiz hələ tezdir. Nədən ki, meşə çaqqalsız olmadığı kimi, Niderlandda da gəlmələri, başqa irqdən olanları, başqa dinin mənsublarını sevməyənlər, onlara yan baxanlar, hətta aşağılayanlar belə var. Burada da sağçılara, ultra millətçilərə rast gəlmək olar. Hətta onların siyasi partiyalarda birləşdiyini, düşüncələrini siyasi müstəviyə daşıdıqlarını, zaman-zaman irqçi çıxışlarını da eşidə bilərik. Amma nə yalan söyləyim, mən burada yaşadığım 15 ay ərzində bu deyilənlərə bir dəfə də olsun rast gəlmədim. Bu qənaətimin oxuduğum xəbərlərdən qaynaqlandığını da demədən keçməyim.

Avropada, o cümlədən də Niderlandda mühacirlərin bir neçə nəsli yaşamaqdadır. Mühacirlərin Avropaya axını qarşısıalınmaz prosesə çevrilib. Burada həyat səviyyəsinin yüksəkliyi də mühacirlər üçün cəlbedicidir. Avropada demoqrafik artımın ləngliyi də, bu və ya digər dərəcədə mühacir axınlarına stimul verir. Avropa ölkələri özlərinə lazım olan işçi qüvvəsini gəlmələrin hesabına təmin etməyə, tənzimləməyə çalışır. İkinci Dünya müharibəsindən sonra bu məqsədlə minlərlə işçi mühacirin gəlməsinə şərait yaradıldığını deməyimiz də bunu təsdiqləmək üçün yetərlidir. Bu danılmaz faktdır.

Mən məsələyə bir qədər fərqli yanaşmaq istəyirəm. Avropa ölkələrinin Asiyada, Afrikada yürütdükləri klassik müstəmləkə siyasəti tarixə qovuşsa da, bu bölgələrin Avropanın siyasi dairəsində saxlanması üçün çabalar sərf edildiyi də məlumdur. Sanki mühacirlər avropalıların müstəmləkə dönəmində onlardan zorla aldıqlarını geri qaytarmaq, tarixi ədaləti mühacirlik yolu ilə bərpa etmək üçün buraya üz tuturlar. Onların bu istəklərini həyata keçirmək üçün baş vurduqları yöntəmlər fərqli görünür. Bunun nə dərəcədə doğru olduğunu deyə bilməsəm də, aşağıda sadalayacaqlarımı bu yöntəmlərə aid edirəm. Avropalılarla qarışıq nikahlar mühacirlərin bu cəmiyyətdə yerini möhkəmləndirir. Bu bir. İkincisi, Avropanın idman hərəkatında mühacirlərin xüsusi çəkisi durmadan artmaqdadır. Heç klub komandalarına diqqət yetirməsək də, bəzi Avropa ölkələrinin milli futbol komandalarına baxmaqla bunu təsdiqləyə bilərik. Digər tərəfdən, Avropanın xidmət sektorunda Şərq ünsürləri get-gedə daha aydın görünür. Bu üç oldu. Artıq elm, siyasət, idarəetmə sahələrində mühacirlərin nəsillərindən olanlar özlərinə yer etməkdədirlər. Bu da dördüncü. Beşincisi, burada xristianlarla yanaşı digər dinlərin, əsasən də müsəlmanların nümayəndələrinin səsi eşidilməkdədir. Artıq Avropa azan səslərinə diksinmir, sabahlarını azan səsilə açmağa vərdiş edib. Örtülü qadınlar Avropanın müasir simasının biçimlənməsində nəzərəçarpacaq dərəcədə aydın seçilən ünsür kimidir. Və bunu heç bir avropalı inkar etmək gücündə deyil. Avropanın Şərq motivləri ilə süslənməsi prosesi sürətlə gedir. Bir az da obrazlı ifadə etsək, irq, dil, din, mədəniyyət baxımından Avropa rəssam palitrasında bir-birinə qarışmış rəngləri andırır.

Niderland da daxil olmaqla Avropada yüzlərlə məscid, müsəlmanlara məxsus yüzlərlə digər dini təyinatlı müəssisə fəaliyyət göstərməkdədir. Rotterdamda "Avropa İslam Universiteti" də fəaliyyətdə imiş. Fəaliyyətinə tələbə çatışmazlığındanmı, maliyyə yetməzliyindənmi ara verdiyini dəqiq öyrənə bilmədim. Yəni rəsmi heç bir qurum onun fəaliyyətini dayandırmayıb. Düzgün anlaşılsın deyə bunu xüsusi vurğulamalı oldum. Müsəlmanların gündəlik dini ibadətlərini bu məscidlərdə icra etdikləri, cümə və bayram namazlarını birlikdə bu məkanlarda qıldıqları bəllidir. Niderlandda dini ayinlərin icrası üçün ideal şərait yaradıldığını da qeyd etməliyik. Mən bu kitabın müəyyən sətirlərini ramazan ayında yazıram və Hoogvliet mərkəzi camisinin uzaqdan gələn azan sədalarını da yaxşı eşidirəm. Nədən ki, kimsə sən niyə belə geyinmisən, sən niyə çarşafda dolaşırsan, niyə saqqal saxlayırsan kimi heç bir irad bildirə bilməz. Niderlandda təkcə qadınların niqabda, üzünü qapadaraq gəzməsi yasaqdır. Bu da təhlükəsizlik məqsədilə, terror təhlükəsini önləmək üçün 2019-cu ildən qüvvəyə minib. Bu qadağanın islam dünyasında, elə bizim sosial şəbəkələrdə də, müsəlmanların sıxışdırılması kimi yozulmasına nədən olduğu da yadımdadır. Həmin günlərdə mən Niderlandın öz təhlükəsizliyi üçün atdığı bu addıma haqq qazandırdım. Tanıdığım kərküklü Orxanın "kafirlər görürsünüzmü müsəlmanlara qarşı nə edirlər" söyləməsinə irad tutaraq, niyə kafir saydığı bir ölkəyə gəldiyini və gəlibsə niyə bu ölkənin qanunlarına əməl etmək istəmədiyini, niyə İraqın yaxınlığındakı islam ölkələrindən birinə, məsələn, Küveytə, BƏƏ-ə getməyib, Avropanın qüzeyindəki kafir hesab etdiyi bu uzaq xristian ölkəsinə gədiyini soruşdum. Bu gənc oğlanın mənim suallarımı cavablandırmağa nə sözü, nə də dəlil-sübutu var idi. Olsa da onu dilinə gətirə bilmədi. Türkiyədən başqa heç bir islam ölkəsinin Kərkük türkmənlərinə sahib çıxmaq istəmədiyini nə Orxan, nə də yanındakı digər gənc türkmən etiraf edə bilmədi. Hollandların özlərinə vətən etdikləri bu kiçik ərazi uğrunda nə qədər qurban verdiklərindən, torpaq azlığını aradan qaldırmaq üçün təbiətlə, dənizlə necə mübarizə apardıqlarından mənim bu gənc həmsöhbətlərimin çətin ki, xəbərləri var. Onlar bir şeyi də anlamırlar ki, hollandlar bu torpağı özlərinə Vətən edərkən, nə vaxtsa kimlərinsə gəlib onların Vətəninə şərik çıxacaqlarını, onlara boğazortağı olacaqlarını ağıllarına belə gətirməmişdilər. Onların və onlar kimi neçə-neçə gəncin indiyədək beyninə doldurulanlar Avropa düşüncəsilə tərs gəlir və gəlmədir də. Beyinləri cəfəngiyyatla doldurulmuş adamların Avropaya ayaq açması göz qabağındadır. Cəfəngiyyat yüklü qafalar isə Avropa müstəvisinə çıxınca yanlışa, xətaya yol verir, başqa sözlə, həmin qafalarda "error" meydana çıxır. Bu da Avropada birmənalı qarşılanmır, avropalılar buna adekvat cavab verəmək üçün müxtəlif addımlar atırlar.

Bu yazdıqlarımı da Orxanla söhbətimin davamı sayaq. Mənim ona ünvanlayacağım bir neçə sual, ona demək istədiyim bir neçə söz ürəyimdə düyümlənib. Əvvəlcə onu deyim ki, Avropaya ayaq basan müsəlmanlar, onların yeni nəsilləri burada görmədikləri günə düşüblər, qara gündən ağ günə çıxıblar. Yoğurmayıb, yapmayıb hazırca kökə tapıblar. Niderlandın istənilən şəhərində başı örtülü, öz milli geyimində küçələri dolaşan, velosipedilə harasa gedib-gələn müsəlman qadınları cəhənnəmdən cənnətə düşməyiblərmi? Velosiped sürən bir müsəlman qadınını islam ölkələrində daş-qalaq etməzlərmi, Orxan? Avropada saqqalını uzadıb, çuxasını əyninə geymiş müsəlmana bir söz deyən varmı? Avropa şəhərlərində minlərlə məscidin fəaliyyətindən xəbərin yoxdurmu? Niderlandda, dünyanın bu kiçik ölkəsində təkcə türk müsəlmanlara xidmət edən bir neçə yüz məsciddin olduğunu bilirsənmi? Almaniyada irili-xırdalı məscidlərin sayı 2800-dür. Heyrətamizdir, deyilmi? Utrextdəki Ulu caminin tikintisinə xristian keşişlərin para-pul yardımı etmələrindən də mi xəbərsizsən? Niderlandda ondan artıq məscidin kilsə binasında yerləşdiyini də xatırladımmı? Düzdür, kilsə binaları satlığa çıxarılıb, müsəlman türklər də pulunu verib alıb və məscidə çeviriblər. Gərək hər şeyi adıyla deyəsən, Orxancığım. Kilsələrin məscidə çevrilməsi yeni bir məsələ deyil. Osmanlı dönəmində də kilsələrin məscid kimi istifadə edildiyi geniş yayılmış bir hal idi. Məncə, təkcə İstanbuldakı Aya Sofiyanı xatırlatmaq yetərlidir. Türklərin ana qaynağı "Kitabi-Dədə Qorqud" dastanlarında da buna bir neçə dəfə işarə vurulduğunu görürük.

Elə bu aralarda mən bizim niyə milli köklərimizə dayanan bir dinimizin olmadığını da təəssüflə qafamdan keçirdim. Niyə yəhudinin, yaponun, hindlinin, ərəbin özünəməxsus dini olmalıdır, bizim yox? İranın islamı özününküləşdirdiyi, ona öz milli boyalarını sürtdüyünü də xatırladıram. Elə Avropanın bir sıra xalqları kimi, hollandların protestanlığın timsalında xristianlığı özününküləşdirmək istəyini də bu düşüncələrimin üzərinə əlavə edirəm. Tanrıçılıq din kimi bir qövm olaraq bizi bütövləşdirə bilməzdimi? Elə əlifbamızla bağlı düşüncələrim də buna bənzəyir. Biz damğalarımızın, rəmzlərimizin kombinasiyasından özümüzəməxsus bir əlifba niyə yaratmadıq? Və ya Orxon-Yenisey yazısını təkmilləşdirərək türk xalqlarının ortaq əlifbasına çevirmək bizi daha çox ruhumuza, kökümüzə bağlamazdımı? Heç olmasa, uşaqlarımıza bu əlifbanı alternativ olaraq öyrədə bilmərikmi? Ona ikinci nəfəsi, ikinci həyatı bu yolla qazandırmaq olmazmı? Bu əlifbadan istifadənin çətinliklərini önə sürənlərə, dünya ilə inteqrasiyamız üçün çətinlik yaradacağını müdafiə edənlərə, üzülərək deyim ki, bu mövqedə duranlar arasında şəxsiyyətinə və elminə böyük hörmət etdiyim insanlar da var, mən cəmi bir sual ünvanlayıram: minlərlə heroqlifdən istifadə edən yapon və ya çinli niyə bunu çətinlik kimi qəbul etmir, çətindirsə niyə asan yola baş vurmur? Bəlkə də bu gün Yaponiyanın milli kökünə bağlılığının, iqtisadi inkişafının ən ümdə səbəblərindən biri milli dinini və yazısını qoruyub saxlamasındadır? Suallar çoxdur, uzatmaq da olar. Sadəcə onların cavabını tapmaq üçün böyük zaman və böyük səbr gərəkdir.

*(davamı gələn sayda)*

**Afiq MUXTAROĞLU**
Niderland

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

# Yeni YOL

31 YANVAR 2022-Cİ İL № 002 (149)

İCTİMAİ QƏZET yeniyolqazeti@gmail.com ❁ "ახალი ოოლი" საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

## NƏSİB NƏSİBOV DÜNYASINI DƏYİŞİB



Gürcüstanın Əməkdar mədəniyyət işçisi, "Şərəf" ordeni laureatı, tanınmış jurnalist, şair-publisist Nəsib Nəsibov yanvarın 24-dü 84 yaşında dünyasını dəyişib.

N.Nəsibov "Gürcüstan" qəzetinin keçmiş şöbə müdiri olub.

O, gürcü şair və yazıçıların bir sıra əsərlərini Azərbaycan dilinə tərcümə edib, "Gürcücə-azərbaycanca lüğət" kitablarının həmmüəllifi olub.

## XƏSTƏLİKLƏRƏ NƏZARƏT VƏ İCTİMAİ SAĞLAMLIQ MİLLİ MƏRKƏZİ ƏHALİYƏ MÜRACİƏT EDİB




**Xəstəliklərə Nəzarət və İctimai Sağlamlıq Milli Mərkəzi əhaliyə müraciət edərək koronavirusa yoluxanlarla təmasda olanlar üçün ətraflı təlimat yayımlayıb. Təlimatda deyilir:**

- Yoluxmuş şəxslə qorunmadan təması dayandırın;
- Təcili surətdə 8 günlük özünütəcridə/karantinə keçin və növbəti 9-12 gün ərzində maska taxın; əgər:
- Ümumiyyətlə peyvənd olunmayıbsınızsa və ya qismən olunubsunuzsa;
- 2-ci dozanı vurdurduqdan 14 gün ötməyibsə;
- 2-ci dozanı vurdurduqdan 90 gün ötübsə;
- COVID keçirdikdən 60 gündən artıq vaxt ötübsə.

**Özünütəcridə/karantinə ehtiyac yoxdur, əgər:**

- Buster dozanı vurdurubsunuzsa;
- Peyvəndin 2-ci dozasını vurdurduqdan 14-90 gün ötübsə;
- COVID keçirdikdən 60 gün keçməyibsə.
- Təmasın dayandırılmasından sonra 10 gün ərzində, həmçinin kiçik riskli mühitə düşən zaman mütləq tibbi maska taxın!

## GÜRCÜSTANDA KORONAVİRUSA QARŞI DƏRMAN İCAD EDİLİB




Tibbi onkologiya və genetika məsələləri üzrə ekspert, həkim Aleksandre Tavartkiladze koronavirusa qarşı dərman icad edib.

"Soulageur" adlı preparat Gürcüstanda COVID-19 xəstələrinin müalicəsində artıq tətbiq olunur.

Bioloji aktiv qida əlavəsi olan dərman ötən ilin noyabrından Gürcüstanda müalicə təlimatına daxil edilsə də, hələ apteklərdə satılmır.

"Soulageur" 90 %-dən aşağı saturasiyası (qanda oksigenin miqdarı – red.) olan 18 yaşdan yuxarı pasiyentlərə təyin edilir. Preparat koronavirusun ilk simptomlarının aşkarlanmasından 7 gün keçmədiyi halda təyin olunur.

Koronaviruslu pasiyentlərin müalicəsində dərmanın istifadəsinin müsbət nəticələr verdiyi bildirilir.

Preparatın kliniki tədqiqatları davam etdirilir.

## GÜRCÜSTAN AŞIQLAR BİRLİYİ YARADILIR



Gürcüstan Aşıqlar Birliyi yaradılır. Bununla bağlı yanvarın 27-si Tbilisidə Mirzə Fətəli Axundzadə adına Azərbaycan Mədəniyyəti Mərkəzində müzakirələr aparılıb.

Müzakirələrdə iştirak edən aşıq Nargilə Mehtiyeva Gürcüstanda Aşıqlar Birliyinin təsis olunmasına çoxdan ciddi ehtiyacın olduğunu deyib.

"Birliyin yaradılması istiqamətində hazırlıqlara artıq başlanılıb və gələn həftənin sonunda Gürcüstanın bir sıra bölgələrini təmsil edən aşıqlar və ziyalıların iştirakı ilə Tbilisidə Aşıqlar Birliyinin təsis toplantısı keçiriləcək. İclasda təşkilatın sədri, onun müavinləri və İdarə Heyətinə üzvlər seçiləcək. Təşkilatın əsas fəaliyyət istiqamətləri Gürcüstanda bütün aşıqları bir araya gətirmək, saz-söz sənətinin inkişafı və təbliğindən ibarət olacaq", - deyə N.Mehtiyeva bildirib.

O, Aşıqlar Birliyinin Gürcüstanda dövlət qeydiyyatına alınacağını, fəaliyyətinə Gürcüstan və Azərbaycanın aidiyyəti qurumlarının dəstək göstərəcəyini deyib.

Qeyd edək ki, indiyədək Gürcüstanda Aşıqlar Birliyi adı altında bir neçə qeyri-hökumət təşkilatı yaradılıb və heç biri əsaslı fəaliyyət göstərməyib.

## POTİDƏ YENİ LİMAN İNŞA OLUNUB



Poti şəhərində yeni dəniz limanı inşa olunub. Yanvarın 29-u Baş nazir İrakli Qaribaşvili, hökumət üzvləri və diplomatik korpusun nümayəndələrinin iştirakı ilə limanın rəsmi açılış mərasimi keçirilib.

Gürcüstanın İqtisadiyyat və Dayanıqlı İnkişaf Nazirliyindən bildirilib ki, layihə "PACE Group" şirkəti və ABŞ Beynəlxalq İnkişaf Maliyyə Korporasiyasının (DFC) birgə səyləri ilə reallaşdırılıb.

"Poti Yeni Dəniz Limanı" Gürcüstanın dəniz sektorunda indiyədək reallaşdırılmış ən iri layihələrdən biridir. Layihənin dəyəri 120 milyon ABŞ dolları təşkil edir. DFC layihəyə 50 milyon ABŞ dolları həcmində vəsait ayırıb.

Yeni liman 25 hektar sahədə yerləşir. Yükaşırma qabiliyyəti ildə 2,5 milyon ton quru yük və 100 min TEU tipli konteynerdən ibarət olacaq.

Təsisçi: "Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"

Redaktor: Azər MUSAOĞLU
Yayım direktoru: Hacı BƏKİROĞLU
Qrafik dizayn: Elsevər ƏHMƏDOV

ÜNVAN: Qardabani şəh., Kolxoz küç. 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeniyolqazeti@gmail.com

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həlalik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.